# İcbari tibbi sığorta tətbiq ediləcək

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən social-iqtisadi siyasətin prioritetlərindən biri də tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılmasıdır. Ölkədə səhiyyə işinin müasir tələblərə uyğunlaşdırılması, bu sahənin maliyyələşməsinin yeni iqtisadi əsaslarla təşkil edilməsi, əhaliyə göstərilən tibbi xidmətlərin səviyyəsinin artırılması və əhalinin sağlamlığının etibarlı qorunması məqsədilə icbari tibbi sığortanın 2020-ci ildən etibarən ölkənin bütün ərazisində tətbiq olunması nəzərdə tutulmuşdur.***

Bununla əlaqədar olaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər edilmiş, dövlət başçısı tərəfindən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) yaradılmış, zəruri qanunvericilik bazası formalaşdırılmış və bir sıra digər mühüm tədbirlər həyata keçirilmişdir.




Gələn ildən bütün ölkə üzrə yeni bir sosial layihə olan icbari tibbi sığorta tətbiq ediləcək. Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə və əhalinin bütün təbəqələri üçün əlçatan olmasına xidmət edən bu sistemə keçid üçün hazırlıq işləri davam edir. Dövlətimizin başçısı İlham Əliyevin "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs - TƏBİB-in yaradılması haqqında imzaladığı Fərman və Milli Məclisdə "Tibbi sığorta haqqında" Qanuna edilən dəyişikliklər artıq hədəfləri konkretləşdirib.

Gələn ildən etibarən fəaliyyətə başlaması nəzərdə tutulan TƏBİB 2020-ci ildə icbari tibbi sığorta sisteminə keçidi təmin etməlidir.

Qurumun əsas məqsədi səhiyyədə mövcud olan maliyyələşmə mexanizmlərini yeni iqtisadi əsaslarla təkmilləşdirməkdir. Qanuna əsasən icbari tibbi sığorta sistemi çərçivəsində xidmətlər zərfi iki hissədən - baza və əlavə hissədən ibarət olacaq.

Xidmətlər zərfinin baza hissəsinə ilkin səhiyyə xidməti, təcili və təxirəsalınmaz tibbi yardım xidməti, əlavə hissəsinə isə ixtisaslaşdırılmış tibbi yardım aiddir.

Pulsuz olacaq xidmətlər zərfinin baza hissəsindən Azərbaycan vətəndaşlarından başqa ölkədə daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də istifadə edə biləcəklər. Baza hissəsi üzrə hər il adambaşına 29 manat dövlət büdcəsi hesabına ödəniləcək.

Xidmətlər zərfinin əlavə hissəsinə aid olan ixtisaslaşdırılmış tibbi yardımdan istifadə etmək üçün isə icbari tibbi sığorta haqqı ödənilməlidir. Bu haqq işəgötürən tərəfindən hesablanmış əməyin ödənişi fondunun aylıq 2 faizi, sığortaolunan tərəfindən - işçinin əməkhaqqının aylıq 2 faizi qədər müəyyən edilir. İxtisaslaşmış tibbi yardım haqqını ödəməkdən azad edilən şəxslər, yəni işləməyənlər üçün xidmətlər zərfinin əlavə hissəsi illik 120 manat məbləğində olacaq.

Bundan başqa, icbari tibbi sığorta sisteminin tətbiqi dövlət büdcəsindən ayırmalar, istehsal və xidmətlərdən əldə edilən daxilolmalar, ianələr, qrantlar və digər mənbələrdən daxil olan vəsait hesabına həyata keçiriləcək.

Hazırda icbari tibbi sığorta sisteminin məlumat bazasının yaradılması və bütün ölkə üzrə dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin həmin məlumat bazasına inteqrasiyası, TƏBİB-in tabeliyinə verilmiş müəssisələrdə gəlirlərin və xərclərin uçotu da daxil olmaqla onların idarə edilməsini təmin edəcək proqram təminatı hazırlanır.

Qeyd edək ki, icbari tibbi sığorta sistemi artıq iki ildir pilot rayonlar üzrə həyata keçirilir.

**"Qəbələ"**

# Tibbi müayinə uğurla davam edir



Ölkə Prezidentinin Sərəncamına əsasən rayonun səhiyyə müəssisələrində əhalinin tibbi müayinəsi uğurla aparılmaqdadır. Rayon mərkəzi xəstəxanasının və Qəbələ Müalicə Diaqnostika Mərkəzinin kollektivi tədbirin mütəşəkkilliklə başa çatdırılması ilə bağlı bütün lazımi tədbirləri görüblər.

Əhali tərəfindən böyük razılıqla qarşılanan bu tədbirdə fevral ayından bəri aidiyyəti yaş qrupları üzrə əhalinin 9600 nəfəri tibbi müayinədən keçib. Tibbi müayinədən keçənlərin 610 nəfəri ambulator, 93 nəfəri stasionar müalicəyə cəlb olunub. İxtisaslaşdırılmış tibb müəssisələrinə 49 nəfər göndərilib. 35 nəfərdə isə cərrahiyyə əməliyyatı aparılıb.

Tibbi müayinə davam edir.

**"Qəbələ"**

# Qəbələ rayonu ilə tanış olmuşlar



Azərbaycan Diplomatik Akademiyası Universitetinin tələbələri tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər etmişlər. Səfər zamanı tələblər rayonun tarix-mədəniyyət abidələri, və turizm sektoru ilə yaxından tanış olmuşlar.

**"Qəbələ"**

# Buraxılış imtahanları keçirilib

Martın 10-da Qəbələ rayonunun ümumtəhsil müəssisələrində Dövlət İmtahan Mərkəzinin 9-cu sinif şagirdləri üçün keçirdiyi buraxılış imtahanlarının birinci mərhələsi başa çatıb.



İmtahanların keçirilməsi üçün Qəbələdə 3 imtahan mərkəzi ayrılıb. Saat 11:00-da başlanan və 3 saat davam edən imtahanlarda 1273 şagird iştirak edib.

Rayonumuzun 9-cu sinif şagirdləri üçün təşkil edilən buraxılış imtahanlarının birinci mərhələsi mövcud təlimata uyğun keçib və heç bir qanun pozuntusuna yol verilməyib.

**"Qəbələ"**

# Siniflərdə keçən illər

Aydınqışlaq kənd məktəbində yaxşı bir ənənə var, uzun illər burada çalışan müəllimlər yaş həddi çatdıqda təntənə ilə təqaüdə yola salınırlar.

Növbəti dəfə məktəbin müəllimləri Sədrəddin Əliyev və Faiq Mikayılov təqaüdə göndərilmişlər.

Təntənəli mərasimdə 45-ildən artıq bu sahədə çalışmış Sədrəddin müəllimin və Faiq müəllimin həyat yolundan, pedoqoji fəaliyyətindən ətraflı danışılmış, onların bu müddət ərzində özlərini bacarıqlı pedoqoq kimi tanıtdıqları, kollektivdə böyük hörmət qazandıqları, şagirdlərə özlərini sevdirə bildikləri qeyd olunmuşdur.

Tədbir musiqi sədaları altında davam etmişdir.

Sonda Sədrəddin və Faiq müəllim doğma ocaqdan qürurla ayrıldıqlarını söyləmiş və tədbiri təşkil edənlərə minnətdarlıqlarını bildirmişlər.

**Rəna XANCANOVA,**
**Aydınqışlaq kənd diyarşünaslıq klubunun müdiri.**

# Məqsədimiz bacarıqlı kadrlar yetişdirməkdir

Ölkəmizdə peşə təhsilinə dövlətin diqqət və qayğısı zamanın tələblərinə uyğun olaraq gündən-günə artır. Bu təbiidir. Çünki durmadan inkişaf edən ölkə sənayesi, kənd təsərrüfatı, turizm sektoru ancaq yüksək peşəkarlar sayəsində müasir tələblərə cavab verə bilər. Bu səbəbdən Azərbaycan Turizm və Menecment Universitetin bitirdikdən sonra Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində əmək fəaliyyətinə başlamağım üreyimcə oldu.

İlk gündən tədris mərkəzində əsil peşəkarların hazırlanması üçün yaradılan şərait-təlim otaqları, kompüter kabinetləri, kitabxana, idman zalı məni heyran etdi. Məktəb əksəriyyəti ali təhsilli, təcrübəli müəllim və mütəxəssislərlə təmin olunmuşdur. Bunun nəticəsidir ki, tədris mərkəzinin fəaliyyətə başlamasından çox keçməsə də burada hazırlanmış peşə sahibləri nəinki Qəbələdə, hətta respublikamızın paytaxtında və bir çox turizm bölgələrində öz sənətlərinin ustası kimi tanınmışlar.

Tədris mərkəzi ilə rayonumuzda yerləşən otel və istirahət ocaqları arasında yaranan sıx əlaqə tələbələrin təlim və istehsalat təcrübələrinin yüksək səviyyədə təşkilinə müsbət təsir göstərir.




Qəbələdə fəaliyyət göstərən otel və istirahət mərkəzlərində turizm xidməti sahəsi üzrə çalışan kadrların əksəriyyəti bizim tədris mərkəzinin məzunlarıdır.

Mərkəzin istehsalat təlimi ustaları "British Council" və "Alman əməkdaşlığı" layihəsi əsasında təşkil edilmiş təlim və seminarlarda fəal iştirak edərək müvafiq setifikatlar almışlar. Keçən tədris ilində iki qrupda, bu dərs ilində isə dörd qrupda təlimlər "British Council" layihəsi əsasında keçirilir. Bu qruplarda təhsil alan tələbələr həftədə üç gün Qəbələdə fəaliyyət göstərən otellərdə təcrübə keçirlər. Tələbələrimiz təcrübə təlimlərində həvəslə iştirak edir və gələcək iş yerlərində işəgötürənlərin nəzarəti altında peşəkarlıqlarını artırmağa çalışırlar.

Məlum həqiqətdir ki, işəgötürənlər öz işinin öhdəsindən gələn bacarıqlı məzunların işə qəbuluna üstünlük verirlər. Buna görə də kollektivimiz çalışır ki, yüksək peşəkarlığa malik kadrlar yetişdirsin.

**Cəmilə ŞİRİNOVA,**
**mərkəzin əməkdaşı.**